# Ümumi tarix kursunun tədrisində təlimin səmərəliliyinin artırılmasında tarixi sənədlərdən istifadənin rolu

**Əfsanə Eldar qızı Qurbanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** efsanequrbanova0123456@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f.d. T. İsayeva

**Açar sözlər:** tarix təlimi, şagird, tarixi sənədlə iş, müstəqil iş, bədii ədəbiyyat
**Ключевые слова:** обучение истории, ученик, работа с историческими документами, самостоятельная работа, художественная литература
**Key words:** teaching history, student, work with historical documents, independent work, fiction

Azərbaycan Respublikasının müasir təhsil sisteminin qarşısında duran ən vacib məsələlərdən biri təhsili inkişaf etdirmək, bu sahədə mühüm nailiyyətlər əldə edərək, onu dünya təhsil sisteminə inteqrasiya etməklə cəmiyyətdə öz yerini müəyyən edə bilən şəxsiyyətyönlü savadlı kadrlar yetişdirməkdir. Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də islahatlar keçirilmişdir və bu islahatların uğurlu nəticələri əldə olunmuşdur. Bu uğurlu nəticələr digər elmlərlə yanaşı tarix elmində də öz əksini tapmışdır. Hər zaman tarixi keçmişimizə maraq daha da artmaqdadır. 2020-ci il 27 sentyabrdan başlayan ikinci Qarabağ müharibəsində qazanılmış şanlı qələbə ilə Azərbaycan iki əsirlik tarixində ilk dəfə idi ki, ərazi itirməklə yox itirilmiş torpaqları geri qaytarmaqla zəfər tarixini yazmışdır və bununla da tariximiz daha da zənginləşmişdir. Müəyyən dövrlərdə tarixi keçmişimizin öyrənilməsinə bir sıra maneələr yaradılmış tariximiz təhrif olunmuş şəkildə öyrənilmişdir. Lakin, bu gün tarixi mənbələri hərtərəfli öyrənərək bu sahədə olan təhrifləri aradan qaldırmaq tariximizin real gerçəkliyini göstərmək əsas vəzifələrdən olmalıdır. Tarixi biliklərin mənimsənilməsində tarixi sənədlərin də mühüm rolu var.

Müasir dövrdə ümumtəhsil məktəblərdə tarix fənninin tədris zamanı tarixi sənədlərdən istifadə mühüm əhəmiyyət kəsb edir və tarixi sənədlə iş şagirdin təfəkkürünü, tarix elminə olan marağını artırır. Belə ki, tarixi biliklərimizin əsas mənbəyi tarixi sənədlərdir. Tarix dərslərində də tarixi sənədlərdən istifadənin həm təhsil, həm də tərbiyəvi cəhətdən böyük əhəmiyyəti var. Dərs zamanı müəllim tarixi sənədlərdən istifadə edərək dövrün mənzərəsini daha aydın və ətraflı şəkildə təsvir edir və sənəd mətni üzərində iş müəllimin hekayəsini daha inandırıcı və canlı edir. Nəticədə şagirdlərin düşüncə və xəyal prosesləri aktivləşir materialın daha səmərəli mənimsənilməsinə və tarixi biliklərin inkişafına şərait yaranır. Tarixi sənədlərin təhlili şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürü və müstəqil işləmə qabiliyyətini inkişaf etdirir. Şagirdlər müstəqil işləmə bacarıqlarını yəni sənədləri oxumaq, təhlil etmək, nəticə çıxarmaq, düşünmək, dövrün sənədlərinin əhəmiyyətini dərk etmək kimi bacarıqlara yiyələnirlər. Bu cür bacarıqların məktəb vaxtından formalaşdırılması zaman keçdikcə inkişaf etdirilməsi çox vacib amillərdəndir. Sənədlər vasitəsilə şagirdlərdə tarixə olan maraq daha da inkişaf edir. Şagirdlər artıq sənədlərin tarix elmi üçün əhəmiyyətini dərk edirlər.

Tarixi sənədlər tarixin tədrisinin məqsəd və vəzifələrinə uyğun olmalıdır, dövrün ən əsas məsələlərini, problemlərini əks etdirməlidir, keçirilən mövzu ilə bilavasitə əlaqəli olmalıdır. Tarixi sənədlərdən istifadə edərkən şagirdlərin yaş xüsusiyyətləri həmçinin mövzuya dair

bilikləri nəzərə alınmalıdır.

M. Əmirov "Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası" adlı dərs vəsaitində tarix dərslərində istifadə olunan sənədli materialları aşağıdakı şəkildə qeyd etmişdir:

— ədəbi xarakterli mənbələr - hekayə, təsviri mənbələr. Buraya salnamə, xronikal parçalar, memuarlardan, pamfletlərdən, məqalələrdən fraqmentlər aiddir.

— akt xarakterli mənbələr (fərmanlar, dövlət aktları, qanunlar, istintaq işləri)

— bədii ədəbiyyat sənədləri: şifahi xalq yaradıcılığı əsərləri (miflər, eposlar, təmsillər) və ədəbiyyat əsərləri (poeziya, satira və s.). Tarixi sənədlər əks etdirdiyi dövrün ən vacib məsələlərini özündə əks etdirir.

Tədqiqatçıların da qeyd etdiyi kimi, aşağı siniflərdə nisbətən sadə və anlaşıqlı yəni təsvir və hekayə xarakterli sənədlər üstünlük təşkil edir. Aşağı siniflərdə tarixi sənədlərin həcminə də diqqət yetirilməlidir. Həcmcə böyük olan sənədlərdə əsasən vacib olan amilləri seçmək lazımdır. Sənədin həcmi böyük olduqda şagirdlərin diqqəti dağılır, başlıca cəhəti ayıra bilmir və məzmunu başa düşmür. 6-cı sinif Ümumi tarix dərsliyində şagirdlər müxtəlif tarixi sənədlərlə tanış olurlar. Dərsliyin sonunda isə bir neçə tarixi rəvayətlər öz əksini tapmışdır. Bu tarixi rəvayətlərdən birini nəzərdən keçirək:

"Pirr qələbəsi". Hazırda çox böyük itkilər hesabına başa gələn uğurlar zamanı bəzən, "Pirr qələbəsi" ifadəsini işlədirik. Qədim tarixçinin yazdığına görə bu ifadə belə yaranmışdır: Romalılar Cənubi İtaliyada yunan şəhərləri ilə vuruşarkən, Balkan yarımadasında Epir padşahlığının hökmdarı Pirr öz ordusu ilə yunanlara köməyə gəlir. Onun ordusu 22 min piyada, 3 min atlı döyüşçü və 20 döyüş filindən ibarət idi. Döyüş zamanı fillər romalıların sıralarına girdi. Fillərin üstündə oturan döyüşçülər romalıların üzərinə ox və mizraq yağdırırdılar. Pirrin ordusu bir neçə qələbə qazandı. Lakin bu qələbələr çox böyük itki hesabına başa gəldiyi üçün Pirr dedi: "Daha bir belə qələbə də qazansaq, mən ordusuz qalacağam". "Pirr qələbəsi" məğlubiyyətə bərabər qələbə mənasında işlənir.

Yuxarı siniflərə keçdikcə tarixi sənədlərin mürəkkəblik dərəcəsi və həcmi də artır. Tarixi sənədlərdən istifadə edərkən şagirdlərin öz fikirlərini müstəqil şəkildə ifadə edə bilməsi, sənədə yanaşma tərzi onun özünü inkişaf etdirməsinə və gələcəkdə cəmiyyətdə mühüm yer tuta bilməsinə kömək olacaqdır. Ən əsas da şagirdlərin öz düşüncələrini deməkdən çəkinməməsi üçün çalışmaq lazımdır.

Şagirdlərin tarixi keçmişlə tanış olmasında bədii ədəbiyyat sənədlərinin də özünəməxsus yeri var. Dövrün təsvirini ətraflı şəkildə versə də, bədii ədəbiyyat əsərlərini müəllif öz düşüncələrinə, görüşlərinə əsasən yazdığına görə, onlara tənqidi yanaşmaq lazımdır. Bədii ədəbiyyat əsərləri sayəsində şagirdlərdə tarixə olan maraq daha da artır. Tarixi keçmişin obrazlarla bədii surətdə, daha asan və maraqlı şəkildə tanış etməyin ən gözəl vasitəsidir. Bədii ədəbiyyatdan istifadə etmək hər şeydən əvvəl müəllimin özünə faydalıdır. Bədii ədəbiyyat vasitəsilə müəllim şagirdlərin şüurunda tarixin dolğun təsəvvürünü yarada bilər. Təlim prosesində tarixi sənədlərdən istifadənin iki üsulundan istifadə olunur:

1. Tarixi sənədin dərsdə müəllimin şərhinə daxil edilməsi
2. Tarixi sənəd materialı üzərində şagirdlərin müstəqil işlərinin təşkil və təhlil edilməsi.

Dərsliklərə daxil edilmiş bütün tarix sənədlərində çox çətin və az çətin amillər vardır. Bir sıra məzmunca mürəkkəb xarakterli sənədlər xüsusilə də akt xarakterli sənədləri şagirdlər başa düşməkdə çətinlik çəkirlər və bu zaman əlbəttə ki müəllimin şərhinə ehtiyac duyulur. Sənəd yalnız müəllimin təqdimatında istifadə olunmamalıdır, həm də şagirdlərin də sənəd üzərində işləməyi vacibdir. Müəllimin tapşırığı ilə dərsdə tarix sənədi üzərində şagirdlərin müstəqil işi geniş şəkildə tətbiq olunmalıdır. Bu o zaman mümkün olar ki, sənəd şagirdlərin müs-

təqil təhlili üçün anlaşıqlı olsun, həmçinin şagirdlər əvvəlcədən sənədlə işləmə bacarıqlarına yiyələnməlidirlər. Mətnin çətin hissəsini müəllim özü izah edir, daha asan hissələri isə müstəqil olaraq oxumağı və təhlil etməyi şagirdlərə təklif edir. Təcrübə göstərir ki, sənəd üzərində şagirdlərin müstəqil işi o zaman asanlaşır ki, müəllim şagirdlərə sənədin meydana gəlməsi ilə əlaqədar olan konkret şəraitdən baş çıxarmağa kömək edir. Müəllim şagirdlərə 6-cı sinif "Ümumi tarix" dərsliyində Hindistanda kasta quruluşunun yaranması haqqında danışarkən müxtəlif sənədlərdən istifadə edə bilər. Şukraçariyanın "Nitisara" kitabı Hindistan haqqında müəyyən təsəvvür verir. "Nitisara" da deyilir ki, "brahmana layiq ruhu nə dərman rəngi, nə də əcdadımız törədə bilər". Kitabda deyilənlərə əsasən, kastalara bölünmə doğuluşa görə yox, qabiliyyətə görə olmalıdır. Həmçinin kitabda deyilir: "Rəsmi vəzifəyə təyin edərkən, kasta və ailə deyil, adamın məşğələsi, xasiyyəti və xidmətləri nəzərə alınmalıdır". Padşah gərək öz şəxsi rəyinə görə yox, xalqın əksəriyyətinin rəyinə uyğun hərəkət etsin. "Çoxlu lifdən hörülən kəndir şiri çəkib sürümək üçün davamlı olduğu kimi, ictimai rəy də padşahdan daha qüdrətlidir".

Müəllim əvvəlcə sənədi oxuyur, şagirdlər isə mətni diqqətlə izləyirlər. Sonra müəllim şagirdlərə suallar verərək onları işə cəlb edir. Bu suallar aşağıdakı kimi ola bilər:

1) Brahmanlar kimdir?
2) Kasta quruluşu haqqında nə bilirsiniz?
3) Nə üçün insanlar kastalara bölünürlər?

Şagirdlər bu suallara cavabı sənədin mətnindən tapmalı, mövzunu dərk etməklə yanası sənədlə işləmək üçün bacarıqlara yiyələnməlidirlər. Daha sonra müəllim mövzu haqqında şagirdlərə ətraflı şəkildə məlumat verir. Şagirdlər sənədlə iş üsullarını mənimsədikdən sonra sənəd üzərində şagirdlərin müstəqil işi təşkil oluna bilər. Sənədlə iş zamanı şagirdlər daima axtarışda olmaqla yeni məlumatlar əldə edərək, onlarda tədqiqatçılıq qabiliyyətini və tarixə olan maraqlarını inkişaf etdirmək mümkündür.

**Məqalənin aktuallığı.** Tarixi sənədlər üzərində işin təşkilində şagirdlərin müstəqil fəaliyyətə, tədqiqatçılığa cəlb olunması məqalənin aktuallığını təşkil edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ümumtəhsil məktəblərində ümumi tarix fənni üzrə tarixi sənədlərdən istifadənin şagird şəxsiyyətinin formalaşmasına, onların tədqiqatçılıq yolu ilə daima axtarışa cəlb olunması verilmişdir. Müstəqil öyrənmə, fikri fəallığın sərbəst şəkildə ifadəsi kimi bir sıra ideyalar öz əksini tapmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ümumi tarix kursunun tədrisində tarixi sənədlər üzrə şagirdlərin tədqiqatçılıq qabiliyyətini inkişaf etdirəcək bir sıra praktik nümunələr öz əksini tapmışdır.

## Ədəbiyyat

1. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlim metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti), Bakı, 2011 s.707.

2. İsayeva T. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili (5-11-ci siniflər üzrə), Bakı, 2009, 148 s.

3. Cəvahirləl Nehru Ümumdünya tarixinə nəzər, Bakı, "Şərq-Qərb". 2006, 344 s.

4. Vagin A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı: " Maarif", 1973, 458 s.

5. 5-6-cı siniflərdə Qədim dünya və orta əsrlər tarixi tədrisi metodikası. F. Korovkin və N.Zaporojesin.red. ilə. Müəllimlər üçün vəsait. Bakı, 440 s.

6. Т.Н. Глазырина Методика преподавания истории (Учебно-методический комплекс для студентов специальности 1-21 0301 История), Новополоцк, ПГУ, 2011, 356 с.

**А.Э. Гурбанова**

## Роль использования исторических документов в повышении эффективности обучения при преподавании всеобщей истории


### Резюме

В статье рассматривается важность и положительные стороны использования исторических документов на уроках общей истории. Использование исторических документов помогает ученикам формирование их способность знание и привычёк и показывает путь их использования. Обсуждается важность воспитательного воздействия исторических документов на студентов. А также тип исторических документов и их использавния.


**A.E. Gurbanova**

## The role of the use of historical documents in increasing the effectiveness of training in the teaching of general history


### Summary

The article talks about the significance and advantages of the use of historical documents in general history lessons. The use of historical documents exhibits ways to develop students' knowledge, skills and habits. The importance of the educational effect of historical documents on students is discussed. Also, types of historical documents, methods of working with documents are reflected.


**Redaksiyaya daxil olub:** 12.10.2021